# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**Avropa İttifaqı Gender Bərabərliyi naminə: Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı**




**İcra müddəti:** 01.03.2020 - 30.06.2023

**ŞT ölkələri:**

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

**Aİ-nin maliyyə yardımı:** € 7 500 000

**İcraçı təşkilat(lar):**

UN Women, UNFPA, Niras

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:** auth-eca.unwomen.org/en/what-we-do/ending-violence-against-women/eu-4-gender-equality

**Layihənin təsviri:**

Üç il ərzində davam edəcək "Avropa İttifaqı Gender Bərabərliyi Naminə: Gender Stereotiplərinə və Gender Əsaslı Zorakılığa Qarşı" proqramı ictimai fikir və baxışlarda qadınların hüquqlarını məhdudlaşdıran gender stereotipləri və patriarxal normaların dəyişdirilməsini, kişilərin övladlarına qayğı işlərində  və atalıq proqramlarında iştirakının gücləndirilməsi və aidiyyatı ölkələrdə sosial məsələlər üzrə nazirliklərin zorakılıq törətmiş şəxslərə dair proqramlarının qabaqcıl təcrübəyə uyğunlaşdırılmasını hədəfləyir.
Proqram Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və Birləşmiş Millətlər Təşkilatının Qadınlar üzrə Agentliyi və BMT-nin Əhali Fondu tərəfindən milli və regional səviyyədə birgə həyata keçirilir.
Azərbaycan üzrə proqramın əsas məqsədləri aşağıdakılardır:

- Qadın hüquqlarını məhdudlaşdıran gender stereotipləri və patriarxal normalar barəsində  cəmiyyətdəki təsəvvürlərin dəyişdirilməsi;
- Kişilərin övladlarına qayğı və atalıq proqramlarında iştirakının gücləndirilməsi.

**Gözlənilən nəticələr:**

- Azərbaycanda gender stereotipləri və patriarxal normalar ətrafında ictimai təsəvvürlər dəyişib;
- Azərbaycanda kişilərin övladlarına qayğı və atalıq proqramlarında iştirakı güclənib.